# ORTAQLIQLAR

Əziz oxucularımız!

İndiyədək müzakirə etdiyimiz mövzularda bir sahibkar nəzərdə tutulurdu, yəni biz belə müəssisələrin hesabatlarını təhlil edirdik ki, onun bir sahibi olsun. İndi isə bir neçə sahibi olan müəssisərdən söhbət açacağıq. Bu müəssisələrə səhmdar cəmiyyətlər və ortaqlıqlar aid edilir. Səhmdar cəmiyyətlər barədə gələcək nömrələrimizdə müzakirələrimiz olacaq. Lakin bu nömrəmizdə Sizə ortaqlıqlar barədə məlumat vermək istərdik.

Ortaqlıq – mənfəət əldə etmək məqsədi ilə birgə iş fəaliyyəti quran insanların münasibətlərinin əks etdirilməsidir. Ortaqlıqda iştirak edən insanlar müəssisəyə kapital qoyuluşu həyata keçirirlər və idarəetmə ilə bağlı öhdəlikləri müvafiq olaraq bölüşdürürlər. Müəssisəyə yönəldikləri kapital fərqləndiyi səbəbindən burada "Ortaqlıq müqaviləsinin" bağlanması zəruridir. Müqavilədə iştirakçıların hüquq və öhdəliklərinin əks etdirilməsi ilə yanaşı aşağıda qeyd olunan bəndlərin olması vacibdir:

- Kapital faizi
- Üzvlərə ödəniləcək əmək haqqı
- Geri götürmə faizi
- Mənfəətdə pay bölgüsü
- Borc üzrə faizlər
- Ortaqlıqa daxil olma və çıxma barədə şərtlər

Hesabat il ərzində hər bir sahibkar üçün "cari" hesab aparılır:

| Cari hesab | |
|---|---|
| D | K |
| Geri götürmələr | Kapital faizi |
| Geri götürmələr üzrə faiz | Borclar üzrə faiz |
| | Əmək haqqı |
| | Mənfəətdən pay |



İlin sonunda mənfəətdən pay məbləğini tapmaq üçün "təxsisat" hesabı aşağıdakı qaydada qurulur:
Təxsisat hesabı

Xalis mənfəət
\+
Geri götürmələr üzrə faiz
\-
Kapital faizi
\-
Əmək haqqı
\-
Mənfəətdən pay

---

0

Mövzunun daha yaxşı izah olunması üçün aşağıdakı məsələni birgə həll edək:

Məsələ 1. Arif, Azər və Rəşad bir neçə ildir ki, ortaqlıqlar yaradıblar. 30 aprel 2012-ci il tarixinə aşağıdakı məlumatlar mövcuddur:

| | | Arif | Azər | Rəşad |
|---|---|---|---|---|
| "Kapital" hesabında qalıq | 01.05.11 | 60 000 | 50 000 | 40 000 |
| "Cari" hesabda qalıq | 01.05.11 | 2 150 kr | 1 550 kr | 750 dt |
| "Borclar" hesabında qalıq | 01.05.11 | | | 20 000 |
| "Geri götürmələr" hesabında qalıq | 30.04.12 | 12 000 | 16 000 | 14 000 |

Xalis mənfəət 52 000 dir.
Müqavilənin şərtlərinə uyğun olaraq 30.04.12 tarixində başa çatan il ərzində:

- Geri götürmələr: Arif 1 000; Azər 1 200; Rəşad 1 100
- Kapital faizi 8 % dir
- Arifin illik əmək haqqı məbləği 5 000 təşkil edir
- Rəşad borc üzrə 10 % alır
- Mənfəətdə pay bölgüsü : Arif /Azər/ Rəşad 3/3/2

Həlli.

| Təxsisat hesabı | | | |
|---|---|---|---|
| Xalis mənfəət | | | 52 000 |
| Geri götürmə faizi | Arif | 1 000 | |
| | Azər | 1 200 | |

| | | | |
|---|---|---|---|
| | Rəşad | 1 100 | 3 300 |
| Kapital faizi | Arif | 4 800 | |
| | Azər | 4 000 | |
| | Rəşad | 3 200 | (12 000) |
| Əmək haqqı | Arif | | (5 000) |
| | | | 38 300 |
| Mənfəətdə pay bölgüsü | Arif | 14 363 | |
| | Azər | 14 362 | |
| | Rəşad | 9 575 | (38 300) |
| | | | 0 |

**Cari hesab**

| D | | | | | K | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Arif | Azər | Rəşad | | | Arif | Azər | Rəşad |
| 01.05.11 | Qalıq | | | 750 | 01.05.11 | Qalıq | 2 150 | 1 550 | |
| 30.04.12 | GG % | 1 000 | 1 200 | 1 100 | 30.04.12 | K % | 4 800 | 4 000 | 3 200 |
| 30.04.12 | GG | 12 000 | 16 000 | 14 000 | 30.04.12 | Əmək hq | 5 000 | | |
| | | | | | 30.04.12 | Borc % | | | 2 000 |
| | | | | | 30.04.12 | Mnf pay | 14 363 | 14 364 | 9 575 |
| | | | | 1 075 | | | 13 363 | 2 712 | |

**Balans (fraqment)**

| | | | | |
|---|---|---|---|---|
| Maliyyələşir: | | | | |
| Arif | Kapital | 60 000 | | |
| | Cari hesab | 13 313 | | |
| | | | 73 313 | |
| Azər | Kapital | 50 000 | | |
| | Cari hesab | 2 712 | | |
| | | | 52 712 | |

| | | | | |
|---|---|---|---|---|
| Rəşad | Kapital | 40 000 | | |
| | Cari hesab | (1 075) | | |
| | | | 38 925 | |
| | | | | 164 950 |
| Uzun müddətli öhdəlik | | | | |
| Rəşad | Borc | | | 20 000 |
| | | | | 184 950 |

Ortaqlıqda hər hansı bir dəyişiklik baş verən zaman (yeni üzvün daxil olması, mənfəətin pay bölgüsündə dəyişiklik və s.) müəssisənin aktivləri yenidən qiymətləndirilir və qudvill hesablanır.
Qudvil müəssisənin satış qiyməti ilə xalis aktivlərinin balans qiyməti arasında olan fərqdir. O, müəssisənin qeyri-maddi aktivi sayılır. Müəssisə qudvili öz fəaliyyəti nəticəsində qazanır. Bu səbəbdən ortaqlığa daxil olmaq istəyən hər bir üzv bu məbləğin özünə aid olan hissəsini ödəməlidir.
Aşağıda qudvilin və aktivlərin yenidən qiymətləndirilməsinə aid məsələləri təhlil edəcəyik. Məsələlərin həlli ilə bağlı hər hansı bir sualınız yaransa, redaksiyamıza müraciət edə bilərsiniz.

Məsələ 2. Üç dost bir neçə ildir ki, ortaqlıqdadır. Birincinin kapitalı 20 min.manat; ikincinin – 15 min.manat; üçüncünün – 10 min.manat. Bir müddət əvvəl daha iki dost ortaqlığa qoşulmaq istəklərini bildirdilər və hər biri 10 min.manat pul vəsaiti ilə müəssisəyə kapital qoyuluşu etmək fikrindədir. Yuxarıda qeyd etdiyimiz kimi, müqavilənin şərtlərində hər hansı bir dəyişiklik baş verəndə qudvil yenidən bölüşdürülür. Deməli, hər biri 10 min.manat kapital qoyuluşu etmələrinə baxmayaraq, onlar bu məbləğin bir qismini qudvilə ödəyəcəklər. Hesablamalara görə qudvil 15 mindir.
Bölüdürməni aparmaq üçün iki üsuldan istifadə etmək olar:
**Birinci üsul.** Qudvil hesabı açılır

| D | K |
|---|---|
| | 3000 |
| 5000 | 3000 |
| 5000 | 3000 |
| 5000 | 3000 |
| | 3000 |

Kapital hesabında bu cür əks olunur

| D | K |
|---|---|
| 3m 3m 3m 3m 3m | 20m 15m 10m 10m 10m |
| | 5m 5m 5m |
| | 22 m 17m 12m 7m 7m |

**İkinci üsul.** Qudvil hesabı açılmır

| Kapital hesabında qudvilin dəyişməsi | | | |
|---|---|---|---|
| | Yaranma | Bağlanma | Düzəliş |
| 1 | 5 000 k | 3 000 d | 2 000 k |
| 2 | 5 000 k | 3 000 d | 2 000 k |
| 3 | 5 000 k | 3 000 d | 2 000 k |
| 4 | 0 | 3 000 d | 3 000 d |
| 5 | 0 | 3 000 d | 3 000 d |
| | 15 000 | 15 000 | 0 |

Məsələ 3. Bildiyimiz kimi, ortaqlığa yeni üzv qoşulanda aktivlər yenidən qiymətləndirilir. İki dost bir neçə ildir ki, ortaqlıq yaradıblar. Birinin kapitalı 25 min.manat, digərinin isə 32 min.manatdır. Üçüncü dost 30 min.manat ilə daxil olur. Qudvil 42 mindir. Yenidən qiymətləndirmə zamanı aşağıdakılar aşkar olundu:

Avadanlıq 30 000 → 40 000
Ehtiyatlar 12 000 → 10 000
Debitor 10 000
Bank 5 000



| Avadanlıq | |
|---|---|
| D | K |
| Qalıq 30 000 | |
| Y.Qiym 10 000 | |
| 40 000 | |

| Ehtiyatlar | |
|---|---|
| D | K |
| Qalıq 12 000 | Y.Qiym. 2 000 |
| 10 000 | |

| Y.Qiymətləndirmə | |
|---|---|
| D | K |
| Eht. 2 m | Avd 10 m |
| Kap 4 m 4 m | |
| 0 | |

| Bank | |
|---|---|
| D | K |
| Qalıq 5 m | |
| Kapital 30 m | |
| 35 000 | |

| **Kapital** | | | | | |
|---|---|---|---|---|---|
| D | | K | | | |
| | | Qalıq | 25m | 32m | |
| Qudvil | 14 000 | Bank | | | 30m |
| | | Y.Qiym | 4m | 4m | |
| | | Qudvil | 7m | 7m | |
| | | | 36m | 43m | 30m |

| **Kapital hesabında qudvilin dəyişməsi** | | | |
|---|---|---|---|
| | Yaranma | Bağlanma | Düzəliş |
| 1 | 21 000 k | 14 000 d | 7 000 k |
| 2 | 21 000 k | 14 000 d | 7 000 k |
| 3 | 0 | 14 000 d | 14 000 d |
| | 42 000 | 42 000 | 0 |

Növbəti dərsimizdə ortaqlıqlara aid bir mürəkkəb məsələnin həllini təhlil edəcəyik. Bu məsələ mövzunu daha da yaxşı mənimsəmənizə kömək edəcək.

**Qaçırmayın!**

***Ramil Bağırov***